# MƏTBUAT ÜÇÜN AÇIQLAMA

## UBCCE ÜMUMİ YIĞINCAĞININ İKİNCİ İCLASI KEÇİRİLDİ

**No: 09/08/87**
**05.03.2009**

Türkiyənin İstanbul şəhərində, “Ceylan Intercontinental” otelində Qara dəniz və Xəzər dənizi İş Adamları Konfederasiyaları Birliyinin (UBCCE[1]) Ümumi Yığıncağının (General Assembly) ikinci iclası keçirildi. Tədbirdə Azərbaycan Türkiyə İş Adamları Birliyini İdarə Heyəti Sədrinin müavinləri Ali İhsan Genc və Cemal Yangın, Baş katib Rəşad Rəsullu, Beynəlxalq əlaqələr şöbəsinin baş mütəxəssisi Fərid Məlikov və Layihələr və tədqiqatlar şöbəsinin baş mütəxəssisi Amin Çərkəzov təmsil etdilər.

UBCCE Ümumi Yığıncağının II iclasında qəbul edilən qərarlara əsasən, 2009-2011-ci illər üçün UBCCE sədrliyi Türkiyə Sənayeçi İş Adamları Dərnəyindən (TÜSİAD) Yunanıstan Sahibkarlar Federasiyasına (SEV) keçdi. ATİB (Azərbaycan Türkiyə İş Adamları Birliyi) növbəti iki il üçün UBCCE-nin I vitse-prezidenti seçildi. Bundan əvvəl təşkilatın vitse-prezidenti olan ATİB eyni zamanda, “Regional İqtisadi İnteqrasiya” Tematik Komitəsinə də rəhbərlik edəcək. Bundan başqa, ATAMEKEN Union (Qazaxıstan Milli İqtisadi Palatası), TISK (Türkiyə İşəgötürənlər Konderasiyaları Assosiasiyası) və ACPR (Rumıniya İşəgötürənlər Konfederasiyaları Alyansı) müvafiq olaraq “Biznes mühitinin inkişafı”, “İnnovasiya və sahibkarlıq”, “Avropa Birliyi və BUSINESSEUROPE ilə əlaqələr” üzrə vitse-prezident seçildilər.

Tədbir zamanı UBCCE ilə Beynəlxalq Sahibkarlar və İşəgötürənlər Konqresi (ICEA) və Türkiyə Sahibkarlar və İşəgötürənlər Konfederasiyasi (TÜRKONFED) arasında anlaşma və qarşılıqlı əməkdaşlıq sazişi imzalandı.

UBCCE Ümumi Yığıncağının II toplantısı zamanı həmçinin Gürcüstan Sahibkarlar Konfederasiyası (GEC), İraq İş Adamları Birliyi (IBMU), Ukrayna İşəgötürənlər Federasiyası (FEU) UBCCE üzvlüyünə qəbul edildi. Yeni üzvlər daxil olmaqla, UBCCE üzvlərinin sayı 22-yə çatdı.

---

[1] UBCCE – Union of Black Sea and Caspian Confederation of Enterprises

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

Qeyd edək ki, iclas zamanı UBCCE-nin 2008-ci il fəaliyyətlərinin yekununa nəzər yetirildi və 2009-cu il üçün fəaliyyət planı və büdcə müzakirə və təsdiq edildi.

Xatırladaq ki, ATİB-in əsas təşəbbüsçülərindən biri olduğu UBCCE 27 noyabr 2006-cı ildə İstanbulun Çırağan Sarayında Qara dəniz və Xəzər dənizi regionunu təmsil edən 12 ölkənin iş adamlarını təmsil edən 16 təşkilatın iştirakı ilə təsis edilib. Balkan ölkələri, Qara dəniz, Qafqaz və Xəzər dənizi bölgəsindəki ölkələrin müstəqil və könüllü əsasda yaradılmış iş dünyası təşkilatlarını əhatə edən Birliyin Təsis Yığıncağında Albaniya, Azərbaycan, Bosniya-Herseqovina, Bolqarıstan, Gürcüstan, İran, Yunanıstan, Qazaxıstan, Makedoniya, Rumıniya, Serbiya və Türkiyənin təmsilçiləri iştirak ediblər (əlavə informasiya üçün www.ubcce.org saytına müraciət edə bilərsiniz).

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**